

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 223 (21.124)

22 noyabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 21-də Bakıda Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyası işə başlayıb.

İki gün davam edəcək tədbirin rəsmi açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak ediblər.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.

Dövlətimizin başçısı və xanımı Avropa Olimpiya Komitəsinin rəhbər heyəti ilə görüşdülər.

Prezident İlham Əliyev Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasında çıxış etdi.

Sonra Patrik Hikki Avropa Olimpiya Komitəsinin xatirə hədiyyələrini Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təqdim etdi.

Daha sonra Patrik Hikki idman karyerası ərzində bir çox uğurlara nail olan, dünyada idmanın inkişafında mühüm xidmətlər göstərən, olimpiya ideallarına sadiqliyi ilə seçilən Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxa Avropa Olimpiya Komitəsinin "Şöhrət" medalını təqdim etdi.

Bununla da, Baş Assambleyanın rəsmi hissəsi başa çatdı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin Assambleyasının 3-cü sessiyasının işində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popovanı qəbul edib.




# Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransı keçirilmişdir





Noyabrın 21-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə keçirilən konfransa seçilmiş 350 nümayəndədən 349-u iştirak etdiyindən konfrans öz işinə başlamağa səlahiyyətli hesab edilmişdir.

Konfransın gündəliyinə aşağıdakı məsələlər verilmişdir:

1. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Sədrinin məruzəsi.

2. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının konfranslararası dövrdəki fəaliyyəti haqqında hesabat.

3. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Sədrinin seçilməsi.

4. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının seçilməsi.

Konfransın reqlamenti müəyyənləşdirilmişdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov konfransda məruzə etmişdir.

(Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur).

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının konfranslararası dövrdəki fəaliyyəti barədə hesabat verərək demişdir ki, hesabat dövründə fəaliyyətin əsas qayəsini partiyanın V Qurultayında partiya Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin proqram xarakterli nitqində irəli sürülmüş müddəaların, partiyanın Proqram prinsiplərinin, Qurultayın qəbul etdiyi qərarların, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının IV Konfransının tövsiyə, tapşırıq və qərarlarının yerinə yetirilməsi təşkil etmişdir. Əgər IV konfransda üzvlərimizin sayı 42940 nəfər olmuşdursa, hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı öz ətrafında 51 mindən çox siyasi həmfikri birləşdirir. Üzvlərimiz bütün yaşayış məntəqələri üzrə 797 ərazi ilk partiya təşkilatında birləşmişlər. Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin siyasi kursuna uyğun olaraq uğurla aparılan demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, sosial-iqtisadi inkişaf və dövlət quruculuğu siyasəti partiya işinin əsas ideoloji hədəfi olmuşdur.

Hesabat məruzəsi ətrafında çıxışlar olmuşdur. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov demişdir ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sıralarında hal-hazırda 22 min nəfərə yaxın gənc birləşib. Dördüncü konfransdan ötən müddət ərzində Heydər Əliyev adına Gənclər Birliyi özünün şəhər və rayon təşkilatlarını formalaşdırmış, siyasi cəhətdən savadlı, intellektli gənclərin vahid ideya ətrafında birləşməsinə nail olunmuşdur. Gənclərdə Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunun aşılanması məqsədilə aid qurumlarla birlikdə fəaliyyət planı tərtib edilmiş və icrasına nail olunmuşdur.

Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva demişdir ki, muxtar respublikada yaşayan qadınlar öz bilik və bacarıqlarını reallaşdırmaq sahəsində bütün imkanlara malikdirlər. Müxtəlif peşə sahələrində qadınların sayı artmaqdadır. Qadınlarımız istər icra, istər qanunvericilik, istərsə də məhkəmə hakimiyyəti orqanlarında geniş təmsil olunur, yüksək və məsul vəzifələrə irəli çəkilirlər. Bu gün seçkili orqanlarda da qadınlar xüsusilə fərqlənirlər. Belə ki, 2009-cu ildə keçirilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının üzvü olan 375 qadın səs toplayaraq muxtar respublikanın yerli özünüidarəetmə orqanlarında təmsil olunmuşlar ki, bunlardan da 8-i bələdiyyə sədri, 2-si bələdiyyə sədrinin müavini vəzifəsində çalışır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatından 6-sı qadındır.

Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Kamal Camalov bildirmişdir ki, 1992-ci il noyabrın 21-də təsis olunan ərazi ilk təşkilatında 11 nəfərdən ibarət idarə heyəti və Heydər Əliyev adına Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatı fəaliyyət göstərir. Ötən müddət ərzində aparılan siyasi-ideoloji iş universitet şəhərciyi ərazi ilk təşkilatının sıralarını daha da genişləndirmişdir. Təkcə son tədris ilində 220-yə yaxın gəncin ilk təşkilatda partiya üzvlüyünə ərizə ilə müraciət etməsi deyilənlərin aydın təzahürüdür.

Gündəlikdə duran üçüncü məsələnin müzakirəsində konfrans nümayəndəsi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir: "Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası son 20 ildə əsrlərə bərabər inkişaf yolu keçmiş, bütün sahələrdə nailiyyətlər əldə etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs muxtar respublikada Ali Məclisin Sədri tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası heç vaxt indiki qədər güclü iqtisadiyyata, yüksək inkişaf səviyyəsinə malik olmamışdır. Muxtar respublikada həyata keçirilən quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə bir tərəfdən Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, ikinci tərəfdən isə qətiyyətli mövqe, düzgün idarəetmə dayanır. Ulu öndərimizin müəyyən etdiyi siyasi xəttə sədaqət, aydın siyasi mövqe, yorulmaz fəaliyyətdən ibarət olan inkişafın Naxçıvan modeli muxtar respublikanın tərəqqisinin əsasını təşkil edir".

İsmayıl Hacıyev bütün bunlara görə Vasif Yusif oğlu Talıbovun yenidən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri seçilməsini təklif etmişdir.

Verilən təklifi dəstəkləyən Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli qeyd etmişdir ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, təhsilə də xüsusi diqqət göstərilir. Təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, müasir məktəb binaları tikilir, onların maddi-texniki bazaları gücləndirilir, yeni informasiya texnologiyaları tətbiq olunur. Əgər 1995-1996-cı tədris ilində ali məktəblərə qəbulda muxtar respublika üzrə 5 nəfər 500-700 intervalında nəticə göstərmişdirsə, 2014-cü ildə 347 abituriyent yüksək nəticə göstərmişdir. Bütün bunlar göstərir ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən quruculuq xətti muxtar respublikada böyük əzmkarlıqla həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva da partiya üzvü olan yaradıcı ziyalılar adından Vasif Talıbovun Yeni Azərbaycan Partiyası Muxtar Respublika Təşkilatının Sədri seçilməsi barədə təklifi dəstəkləmiş və çıxış edərək demişdir ki, intibah dövrünü yaşayan Naxçıvanda mədəniyyət və incəsənət sahəsi də hərtərəfli inkişaf edir. Xalqımızın min illər boyu yaratdığı milli dəyərlərimizin qorunması, milli sənət nümunələrimizin,

Ardı 2-ci səhifədə






xalq musiqimizin yaşadılması və inkişaf etdirilməsi muxtar respublikada mədəniyyət və incəsənət sahəsində aparılan siyasətin əsas istiqamətlərindən biridir. Ötən müddət ərzində rəssamlığın və təsviri sənətin inkişafı sahəsində də ardıcıl tədbirlər görülmüş, bu sahədə ciddi dönüşə nail olunmuşdur. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi, eləcə də muxtar respublikada fəaliyyət göstərən digər yaradıcılıq təşkilatları üçün müasir iş şəraiti yaradılmış, onların fəaliyyəti hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Bütün bunlar isə muxtar respublika rəhbərinin ötən dövr ərzində həyata keçirdiyi məqsədyönlü və qətiyyətli fəaliyyət nəticəsində mümkün olmuşdur.

Çıxışlardan sonra təklif səsə qoyulmuş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri seçilmişdir.

Ali Məclisin Sədri yenidən etimad göstərib onu Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri seçdiklərinə görə konfrans nümayəndələrinə minnətdarlığını bildirmişdir.

Sonra gündəlikdə duran dördüncü məsələ müzakirə olunmuş, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 36 nəfərdən ibarət Siyasi Şurası aşağıdakı tərkibdə seçilmişdir:

1. Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
2. Azər Zeynalov – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini
3. Mirhəşim Seyidov – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini
4. Anar İbrahimov – Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
5. Elman Cəfərli – Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
6. Əmir Babayev – Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
7. İsa Məmmədov – Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
8. Qürbət Rzayev – Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
9. Qadir İbrahimov – Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
10. Rizvan Məmmədov – Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
11. Fazil Abbasov – Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
12. Arif Qasımov – Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri – aparat rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
13. İsmayıl Hacıyev – AMEA Naxçıvan Bölməsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
14. Fəxrəddin Səfərli – AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
15. Vüqar Səfərov – Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı
16. Elşad Əliyev – Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri
17. Bəxtiyar İsmayılov – Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri
18. Nazim Məmmədov – Naxçıvan "Balıqçılıq Təsərrüfatı" ASC-nin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
19. İlhamə Mustafayeva – Naxçıvan Tibb Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
20. Cavid Səfərov – Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri
21. Seymur Talıbov – Naxçıvan Dövlət Universitetinin müəllimi
22. Azad Cabbarov – Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri
23. Yazgül Rzayeva – Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının şöbə müdiri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
24. Ülviyyə Həmzəyeva – Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
25. Namiq Məmmədov – Heydər Əliyev adına tam orta məktəbin direktoru
26. Saleh Məhərrəmov – Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü
27. Aidə Allahverdiyeva – Naxçıvan Qızlar Liseyinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
28. Kamal Camalov – Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
29. Məmməd Babayev – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru
30. Məcid Seyidov – Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini
31. Əli Həsənov – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri
32. Müslüm Cabbarzadə – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müşaviri
33. Oruc Həsənli – Naxçıvan Müəllimlər İnstitutunun rektoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
34. Sahil Tahirli – Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri
35. Əşrəf Nəcəfov – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının şöbə müdiri
36. Eldar Zeynalov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı

Siyasi şuranın ilk iclası keçirilmişdir. İclasda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 11 nəfərdən ibarət İdarə Heyəti seçilmişdir:

1. Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
2. Azər Zeynalov – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini
3. Anar İbrahimov – Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
4. Saleh Məhərrəmov – Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü
5. Vüqar Səfərov – Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı
6. Elşad Əliyev – Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri
7. Bəxtiyar İsmayılov – Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri
8. Yazgül Rzayeva – Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının şöbə müdiri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
9. Azad Cabbarov – Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri
10. Ülviyyə Həmzəyeva – Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı
11. Məmməd Babayev – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Sədrinin müavini, Anar İbrahimov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri vəzifələrinə seçilmişlər.

Ali Məclisin Sədri hesabat dövrü ərzində birgə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının üzvlərinə, partiyanın təəssübkeşlərinə, ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik xəttinə sədaqət göstərənlərin hamısına bir daha təşəkkürünü bildirmiş, konfransı bağlı elan etmişdir.

Dövlət Himni səslənmişdir.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının üzvləri ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanındakı abidəsi önünə gələrək gül dəstələri qoymuş, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad etmiş, xatirə şəkli çəkdirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun M Ə R U Z Ə S İ

Hörmətli konfrans iştirakçıları!

Bu gün Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü tamam olur. Bu münasibətlə sizi və bütün partiya üzvlərini təbrik edirəm!

Ümummilli liderimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasını yaradarkən qarşıya bir məqsəd qoymuşdu: Azərbaycanı yaşatmaq və daha da inkişaf etdirmək. Ölkəmiz üçün olduqca ağır bir dövrdə verilən bu qərar Azərbaycanın bir dövlət kimi yox olmaq təhlükəsinin qarşısını almış, partiyamız isə inkişaf edərək Azərbaycan cəmiyyətinin həyatında aparıcı siyasi qüvvəyə çevrilmişdir.

Bu tarixi gündə partiyamızın və müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir, ruhu şad olsun deyirik.

Müdriklər böyük dövlət xadimləri və qurucu şəxsiyyətlər haqqında deyirdilər: ***"Həqiqi dövlət xadiminin üstün keyfiyyəti ondadır ki, hər bir zərurətdən millət üçün fayda götürməyi bacarsın, hətta şəraitin ən qorxunc axarını belə, xalqın və dövlətin xeyrinə dəyişdirə bilsin".*** Ümummilli liderimiz müstəqilliyimizi qorumaq və daha da möhkəmləndirmək, ölkənin parçalanmasının qarşısını almaq və düşdüyü ağır sosial-iqtisadi böhrandan xilas etmək üçün möhkəm təmələ söykənən ideologiya əsasında Yeni Azərbaycan Partiyasını yaratmış və siyasi fəaliyyət müstəvisinə çıxarmışdır.

Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi həyatında gərgin proseslərin getdiyi bir dövrdə yarandı. Partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyev həmin dövrdə dahi şəxsiyyətin dövlət müstəqilliyimizin qorunması və Azərbaycanda siyasi sistemin formalaşması istiqamətindəki fəaliyyəti barədə danışaraq demişdir: ***"Heydər Əliyevin 1970-ci, 1980-ci illərdə gördüyü işlər, Azərbaycanın inkişafına verdiyi töhfələr və Sovet İttifaqının dağılma ərəfəsindəki fəaliyyəti, cəsarətli addımlar, qanlı 20 Yanvar faciəsinin pislənməsi, Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi təsis edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi, Sovet İttifaqının saxlanmasına dair referendumun burada keçirilməməsi – bütün bu amillər, əlbəttə ki, xalqda Heydər Əliyevə olan məhəbbəti birə-on artırdı. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır".***

Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. Partiyamızın yaradılmasından ötən 22 illik zaman bir daha göstərdi ki,

Ardı 3-cü səhifədə

müstəqil Azərbaycanın inkişafı yalnız ulu öndərimizin müəyyənləşdirdiyi siyasi-hüquqi konsepsiya və sosial-iqtisadi tərəqqi modeli əsasında mümkündür.

Bu inkişaf modelinin əsası ötən əsrin 70-ci illərindən qoyulmuşdur. Ulu öndərimiz hələ o zaman Azərbaycanın müstəqilliyini düşünmüş, bu məqsədlə ölkəmizdə güclü iqtisadi baza və ixtisaslı kadr potensialı yaratmışdır. İndi tam əminliklə demək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici-iqtisadi əlaqələri, dünya iqtisadiyyatına daha dərindən inteqrasiyası 1969-1982-ci illərdə təməli qoyulmuş bazaya və potensiala əsaslanır. Həmin dövrdə Azərbaycan inkişaf edərək elmi-mədəni və sosial infrastrukturu, milli kadr potensialı formalaşmış respublikaya çevrilməsəydi, müstəqillik dövrünün Azərbaycanı onu gözləyən problemlərin öhdəsindən bu qədər asanlıqla gələ bilməz, regionda tam müstəqil ölkə kimi inkişaf edə və tərəqqiyə qovuşa bilməzdi.

Ümummilli liderimiz o dövrdə yaranan imkanlardan istifadə etməklə Azərbaycanı Azərbaycana qaytarmış, ölkəmiz ittifaq dövlətinin aqrar əlavəsindən sənaye kompleksinin, tikintinin, elmin, təhsilin, səhiyyə və mədəniyyətin yüksək inkişaf həddinə çatdığı qabaqcıl respublikaya çevrilmişdi. Ulu öndərimizin Azərbaycanda hakimiyyətinin birinci dövrünü əhatə edən 14 il ərzində yeni zavod, fabrik, istehsalat sahələri tikilib istifadəyə verilmiş, kimya və neft maşınqayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, yeni mikrorayonlar, qəsəbə və şəhərlər salınmışdı. Qısa müddətdə elektronika, radiotexnika, kosmik, aviasiya, hesablama texnikası istiqamətli obyektlərin yaradılması Azərbaycanın gələcəyinə istiqamətlənmiş müdrik siyasətin nəticələri idi.

Əgər ümummilli liderimiz Azərbaycana rəhbərliyinin birinci dövründə partiya rəhbəri kimi sovet beynəlmiləlçilik şüarını milli maraqlara tabe etdirərək Azərbaycanın inkişafına nail olmuş və onu müstəqilliyə hazırlamışdırsa, müstəqillik dövründə siyasi sistemə güclü təsir imkanına malik olan partiya yaratmaqla əldən getməkdə olan müstəqilliyi daha da möhkəmləndirmiş, Azərbaycanı müstəqil dövlətə çevirmişdir. Tarix bu missiya üçün çox da asan olmayan bir dövrü seçmişdi. 1990-1993-cü illərin Azərbaycanı ağır günlərini yaşayırdı. 90-cı illərin əvvəllərində yenicə müstəqillik qazanmış Azərbaycan böyük güc mərkəzlərinin rəqabət meydanına çevrilmiş, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Hərbi, siyasi, iqtisadi və dövlət hakimiyyəti böhranı getdikcə dərinləşir, əhalinin sabaha inamı itirdi.

Bu dövrdə xalq onun arzusunda idi ki, əsrlər boyu həsrətində olduğu dövlət müstəqilliyi qorunub saxlansın. O zamankı hakimiyyət isə bunu bacarmırdı. Xalq sabitlik, əmin-amanlıq istəyirdi. Ölkədə isə anarxiya baş alıb gedirdi. Azərbaycan məqsədli şəkildə vətəndaş qarşıdurmasına sürüklənirdi.

Ümummilli liderimizin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik" münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: ***"Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üzüzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm və ya olum" dilemması qarşısında qalmışdı".***

Belə bir şəraitdə qüdrətli liderə və liderin ətrafında birləşmiş güclü siyasi təşkilata ehtiyac bütün kəskinliyi ilə ortaya çıxdı. Həmin dövrdə bu ağır və şərəfli missiyanı yalnız və yalnız ümummilli liderimiz Heydər Əliyev öz üzərinə götürə bilərdi. Mövcud hakimiyyətsizlikdən, özbaşınalıqdan yorulmuş xalq Azərbaycanın xilasını Heydər Əliyevdə görür, ümidlərini ona bağlayırdı. Bu inamın kökündə ümummilli liderimizin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası dayanırdı.

Beləliklə, 1992-ci il oktyabrın 16-da Naxçıvanı öz qurucu fəaliyyəti ilə Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəsinin güc mərkəzinə çevirən ümummilli liderimizə xalqın mütləq əksəriyyətinin siyasi iradəsini özündə əks etdirən ***"Azərbaycan Sizi gözləyir"*** müraciəti ünvanlandı. Tanınmış elm və mədəniyyət xadimləri, ziyalılar tərəfindən imzalanmış həmin müraciətdə deyilirdi: "Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz... İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz... Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli lider müraciətə 8 gündən sonra ***"Yeni, müstəqil Azərbaycan uğrunda"*** çağırışı ilə başlayan tarixi cavabını verdi. 1992-ci il oktyabrın 24-də mətbuatda dərc olunmuş cavab məktubunda ulu öndər yaranmış vəziyyətdən çıxış yolunu milli dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasında, Azərbaycanın suverenliyinin, təhlükəsizliyinin təmin edilməsində və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraitinin yaradılmasında gördü. Bununla yanaşı, müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi üçün qanunun aliliyinin təmin olunması, demokratiyanın ardıcıl inkişafı, insan hüquqlarına hörmət qoyulması kimi prinsipial məsələlərin bərqərar olunması vacibliyinə diqqət çəkən ümummilli liderimiz cavab məktubunda qeyd edirdi ki: ***"Müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur".***

Bu tarixi cavabdan sonra, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. O vaxtkı hakimiyyət partiyanın Bakı şəhərində təşkilatlanmasına imkan vermədiyindən, ölkəmizin müxtəlif bölgələrindən gəlmiş 550-dən artıq nümayəndənin iştirak etdiyi təsis konfransı blokada vəziyyətinə görə lazımi səviyyədə isidilməyən və işıqlandırılmayan Naxçıvan Dövlət Dram Teatrının bu zalında keçirildi. Ulu öndərimiz həmin günü belə xatırlayırdı: ***"Biz 1992-ci ilin şaxtalı bir günündə, istilik olmayan bir zalda, Naxçıvan Dövlət Teatrının binasında paltoda və çoxları papaqda oturaraq ilk konfransımızı keçirirdik. Üşüyürdük, əlimizi əlimizə sürtürdük. Amma iradəmiz yüksək idi, iradəmiz güclü idi. Gələcəyə çox nikbinliklə baxırdıq... Məni sevindirən odur ki, ağır şəraitdə Naxçıvanda keçirdiyimiz konfrans ölkənin və partiyanın böyük inkişaf yolunu təmin etdi".***

Xalqımızın və dövlətimizin taleyinin həll olunduğu bir dövrdə meydana çıxan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoydu. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ulu öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Göründüyü kimi, partiyamızın yaranması bir tərəfdən Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, ağır böhranın nəticələrinin aradan qaldırılması ilə bağlıdırsa, ikinci tərəfdən bu, ulu öndərə olan sonsuz xalq etimadının, onun böyük partiya və dövlətçilik təcrübəsinə inamın, sadə azərbaycanlıların yaddaşında kök salmış qurucu lider və xilaskar obrazının bilavasitə təsiri ilə bağlıdır. Heydər Əliyev şəxsiyyəti olmasaydı, Yeni Azərbaycan Partiyasının yaranması, təşkilatlanması və hakim partiya statusu qazanması da mümkün olmayacaqdı. Ulu öndərimiz Yeni Azərbaycan Partiyasının yaradılmasını tarixi şəraitin diktəsi ilə meydana gələn zərurət kimi xarakterizə edərək demişdir: ***"Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".***

Yeni Azərbaycan Partiyasının təsis edilməsindən 7 ay sonra dahi liderin ali hakimiyyətə ikinci qayıdışı ölkənin düşdüyü ağır problemlərdən xilasının başlanğıcı oldu. Hakim partiya kimi Yeni Azərbaycan Partiyası qısa zamanda sabitliyi bərqərar edən, demokratik dəyərlərə üstünlük verən, hüquqi, demokratik, dünyəvi Azərbaycan dövləti və vətəndaş cəmiyyəti quruculuğu prosesini həyata keçirən real siyasi qüvvə kimi özünü təsdiq etdirdi. Bu yolla gedərək müxalifət partiyasından qüdrətli hakim partiyaya, siyasi partiyadan güclü ümumxalq partiyasına çevrildi.

İstənilən siyasi partiyanın taleyi, ilk növbədə, onun ideyalarının ictimai dəyəri ilə ölçülür. Müasir Azərbaycan siyasi mühitində Yeni Azərbaycan Partiyası ilə müqayisə oluna biləcək bir partiya, Yeni Azərbaycan Partiyası qədər geniş sosial bazaya malik olan kütləvi və dayanıqlı, siyasi proseslərə həlledici təsir imkanı olan ikinci bir partiya yoxdur!

Partiyamızın gücü nədədir? Ölkə Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının gücünü belə xarakterizə edir: ***"Yeni Azərbaycan Partiyasının gücü, ilk növbədə, onun əvəzsiz lideri Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyasının gücü bundadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir. Yeni Azərbaycan Partiyasının gücü ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyası liderinin daxili və xarici siyasətini xalq bəyənir və dəstəkləyir".***

Yeni Azərbaycan Partiyasının gücü həm də onun ideyalarının və cəmiyyət həyatının ən müxtəlif məsələlərinə dair baxışlarının məhdud zaman çərçivəsinə deyil, uzun bir dövrə və tarixi proseslərə hesablanmasındadır. Məhz bu amili əsas götürərək ümummilli liderimiz deyirdi ki: ***"Yeni Azərbaycan Partiyası Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin partiyasıdır".***

Yeni Azərbaycan Partiyasının gücü onun ideyalarının varisliyindədir. Böyük dövlət xadimi Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına Müraciətində yazırdı ki: ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir... Həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın layiqli övladlarını öz ətrafında birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".***

Bu gün Yeni Azərbaycan Partiyasının qüdrəti öz əksini ulu öndərimizin tarixi prosesləri qabaqlayan müdrikliyində və ölkə Prezidenti cənab İlham Əliyevin liderlik keyfiyyətlərində tapmışdır. Ölkə başçısı kimi partiya sədrimiz tərəfindən gerçəkləşdirilən böyük iqtisadi layihələr, beynəlxalq aləmdə qazanılan uğurlar, dünya azərbaycanlılarının birliyinin daha da möhkəmləndirilməsi, həyata keçirilən uğurlu milli dirçəliş və dövlətçilik siyasəti eyni zamanda Yeni Azərbaycan Partiyasının real gücünün ifadəsidir. Heydər Əliyev yolunun, ulu öndərin milli dövlətçilik konsepsiyasının uğurla davam etdirilməsi müstəqil Azərbaycanı əsl tərəqqiyə qovuşdurmuşdur.

Bu nailiyyətlər partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyətində də özünü göstərməkdədir. Ötən dövrlər ərzində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplərə sadiq qalan Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatı yüksək inkişaf və təşkilatlanma yolu keçmiş, partiyamızın sıraları cəmiyyətin təbəqələrindən olan üzvlər hesabına genişlənmişdir. Əgər 1992-ci ildə partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının sırasında 1118 üzv vardısa, hal-hazırda partiyanın muxtar respublika təşkilatı öz sıralarında 51 mindən çox üzvü birləşdirmişdir. Başqa sözlə, partiyanın muxtar respublika təşkilatı üzvlərinin sayı 46 dəfə artmışdır. Bu, ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə, siyasi fəlsəfəsinə sədaqət və ehtiramın, ölkə Prezidenti tərəfindən həyata keçirilən siyasətə dərin inamın və etibarın ifadəsidir.

Partiyanın muxtar respublika təşkilatının say tərkibi onun nə qədər geniş sosial bazaya malik olduğunu göstərir. Partiya üzvlərinin 21 min nəfərdən çoxunu qadınlar, 22 minə yaxınını isə gənclər təşkil edir. Yeni Azərbaycan Partiyasının dördüncü konfransının keçirildiyi 2009-cu illə müqayisədə partiya üzvü olan qadınların sayı 22 faiz, gənclərin sayı isə 17 faiz artmışdır. Partiyamızın mühüm keyfiyyətlərindən biri də sıramızda alimlərin, ziyalıların, intellektual səviyyəli insanların çoxluq təşkil etməsidir. Bu gün partiyanın muxtar respublika təşkilatı üzvlərinin 35 faizini ali, 23 faizini isə orta ixtisas təhsillilər təşkil edir.

Muxtar respublikada partiyamızın fəaliyyətini günün tələbləri səviyyəsində qurmaq üçün şəhər və rayon, eləcə də muxtar respublika təşkilatında müasir tələblərə cavab verən iş şəraiti yaradılmış, inzibati binalar tikilmiş və ya əsaslı təmir olunmuşdur. Bundan başqa, yeni yaradılan kənd mərkəzlərində partiya ərazi ilk təşkilatları da ayrıca iş otaqları ilə təmin edilirlər. Bir sözlə, partiyamızın muxtar respublika təşkilatı ideya-təbliğat və təşkilati fəaliyyəti həyata keçirmək üçün bütün imkanlara malikdir.

Partiya təbliğatı hakim partiyanın fəal təşkilatçılığı ilə həyata keçirilən irimiqyaslı quruculuq tədbirlərinə uyğun qurulmalıdır. Çünki biz digər siyasi qurumlardan fərqli olaraq, şüarçılıqla yox, real işlə məşğul oluruq. Partiyanın muxtar respublika təşkilatının 2009-cu ildə keçirilmiş dördüncü konfransı ilə onun beşinci konfransı arasında olan müddət ərzində əldə olunan nailiyyətlər bu siyasətin düzgünlüyünü, Heydər Əliyev quruculuq xəttinin yaradıcı gücünü nümayiş etdirir.

Partiyamızın dördüncü konfransından ötən 5 il ərzində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 2,4 dəfə artmışdır. Bu dövrdə Ümumi Daxili Məhsul istehsalı 2 milyard 339 milyon manata çatmışdır. Sənaye məhsulu istehsalının həcmi 3,4 dəfə, əsas kapitala investisiya qoyuluşu 1,7 dəfə çoxalmışdır. 2010-2014-cü illər ərzində muxtar respublika üzrə 2 min 688 müxtəliftəyinatlı obyekt tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmiş, sahibkarlığın inkişafına diqqət artırılmış, 402 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Bu sahələr bir tərəfdən muxtar respublikada 336 növdə məhsula olan tələbatın daxili imkanlar hesabına ödənilməsinə şərait yaradırsa, digər tərəfdən məşğulluq səviyyəsinin artırılmasına da öz təsirini göstərir. Belə ki, qeyd olunan dövrdə 20 min 257 yeni iş yeri açılmışdır ki, onun da 18 min 384-ü, yaxud 91 faizi daimi iş yerləridir.

Hesabat dövründə aqrar sektorun inkişafı da diqqət mərkəzində saxlanmış, kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1,5 dəfə artmışdır. Əkinçilik və heyvandarlıq inkişaf etdirilmiş, qədim ənənələrə malik olan arıçılıq və quşçuluq dirçəldilmişdir.

Sosial sahə qayğı ilə əhatə olunmuş, 28 min 322 şagird yerlik 71 orta məktəb binası, 62 səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. İnfrastrukturun formalaşması sahəsində görülən tədbirlər davam etdirilmiş, 46 körpü tikilmiş və ya əsaslı təmir olunmuş, ən müasir tələblərə cavab verən yeni avtomobil yolları salınmışdır.

Ötən 5 ildə əhalinin yaşayış səviyyəsi yaxşılaşmış, hər nəfərə düşən gəlirlərin həcmi 1,2 dəfə, orta aylıq əməkhaqqı isə 1,4 dəfə artmışdır. Həyat səviyyəsinin yaxşılaşmasını belə bir fakt da təsdiq edir ki, 2009-cu ildə əhalinin şəxsi vəsaiti hesabına 132 min kvadratmetr yaşayış sahəsi tikilmişdirsə, 2014-cü ilin ötən dövründə bu göstərici 2,7 dəfə artaraq 358 min kvadratmetr olmuşdur.

Bu inkişaf, öz növbəsində, muxtar respublikada demoqrafik inkişafa, əhali artımına və məskunlaşmaya da öz təsirini göstərmiş, son 5 ildə muxtar respublikanın əhalisi 36 min 800 nəfər artmış, əhalinin ümumi sayı 439 min nəfərdən çox olmuşdur.

Aydın məsələdir ki, bu inkişaf öz-özünə baş verməyib. Tikilən, qurulan nə varsa, onun kökündə insan əməyi, insan yaradıcılığı dayanır. Bu gün Naxçıvan Muxtar Respublikasının geniş quruculuq və tərəqqi yoluna çıxarılmasında əməyi olan bütün muxtar respublika əhalisinə, o cümlədən Yeni Azərbaycan Partiyasının üzvlərinə və partiyamızın təəssübkeşlərinin hamısına təşəkkürümü bildirir, Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin partiyasına sədaqətimizi əməli işimizlə doğrultmağı arzulayıram.

Sağ olun!

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin Naxçıvana yeni təyin olunmuş Baş konsulu ilə görüşmüşdür



Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin muxtar respublikamıza yeni təyin olunmuş Baş konsulu Nihat Ərşən ilə görüşmüşdür.

Ali Məclisin Sədri Nihat Ərşəni muxtar respublikada Baş konsul kimi fəaliyyətə başlaması münasibətilə təbrik etmiş, Naxçıvanın qardaş ölkələr olan Azərbaycan və Türkiyə, eləcə də bütün türk dünyası üçün əhəmiyyətini diqqətə çatdırmışdır. Ölkələrimiz arasındakı münasibətlərin inkişafına diqqəti çəkən Ali Məclisin Sədri qədim türk torpağı olan Naxçıvanın dünyada tanıdılmasında birgə fəaliyyətin vacibliyini vurğulamışdır.

Ali Məclisin Sədri zəngin diplomatik təcrübəyə malik olan Baş konsulun Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirmiş, ona fəaliyyətində uğurlar arzulamışdır.

Səmimi görüşə görə minnətdarlıq edən Nihat Ərşən dost və qardaş ölkə olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasında çalışmaqdan məmnunluğunu bildirmişdir. Baş konsul diplomatik fəaliyyəti müddətində ikitərəfli münasibətlərin inkişafı sahəsində səylərini əsirgəməyəcəyini qeyd etmişdir.

Söhbət zamanı əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamına əsasən, hər il noyabr ayının 22-si ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunur.*

*22 noyabr Azərbaycanda ədliyyə işçilərinin peşə bayramıdır*

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi güclü maddi-texniki bazaya malikdir




Azərbaycanda ədliyyə sistemi 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün yaradılmış, onun əsasnaməsi isə 1918-ci il noyabrın 22-də təsdiq edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra inqilab komitəsinin 1920-ci il 13 may tarixli qərarı ilə Azərbaycanda Ədliyyə Nazirliyi ləğv edilərək onun bazasında Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. Səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara rəhbərlik edilməsi, istintaqın aparılması məsələləri daxil edilən Xalq Ədliyyə Komissarlığının fəaliyyəti müxtəlif illərdə dəfələrlə ləğv olunmuş və yenidən bərpa olunmuşdur. 1959-cu ildə məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmiş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil olunmuş və bununla da, Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

1970-ci il oktyabrın 27-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan SSR Ədliyyə Nazirliyi təsis edilmiş və bununla da, Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Bu dövrdən başlayaraq sabit fəaliyyət göstərmək funksiyası təmin olunan Ədliyyə Nazirliyi məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmişdir. Ümumilikdə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaranmışdır.

Cəmiyyətin gələcək inkişafı hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni hüquq və məhkəmə sisteminin yaradılmasını tələb edirdi. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, hüquq sahəsində də islahatlar aparılmağa başlandı. Bu dövrdə ulu öndərin bilavasitə sədrliyi ilə Hüquqi İslahat Komissiyası yaradıldı və qısa müddət ərzində keçmiş Sovetlər Birliyindən qalan hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən quruldu. Hüquq sisteminin fəaliyyətini tənzimləyən bütün əsas qanunlar və məcəllələr beynəlxalq hüquq normalarının tələbləri nəzərə alınmaqla yenidən işlənib hazırlandı və təsdiq edildi. Bu sahədə görülən işlər ədliyyə orqanlarını da əhatə etdi, zəngin qanunvericilik bazası yaradıldı.

Ulu öndərin “Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə” 2002-ci il 24 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəmə qərarlarının və cəzaların icrası, normativ aktların qeydiyyatı, müvafiq məhkəmələrin maliyyə, digər maddi-texniki təminatlarının həyata keçirilməsi və digər sahələr üzrə əlavə səlahiyyətlər verilmişdir. Əlavə və dəyişikliklərə qədər nazirlik azsaylı ştat vahidi ilə fəaliyyət göstərirdisə, həmin fərmanın qəbulundan sonra nazirliyin aparatının yeni strukturu təsdiq edilmiş, müvafiq şöbə və bölmələr yaradılmışdır.

Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuşdur. Ölkə başçısının insan hüquqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində Naxçıvanda ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoymuşdur. Prezident İlham Əliyev tərəfindən “Ədliyyə orqanlarının inkişafı haqqında”, “Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı”nın və məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə fərmanların imzalanması, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında “Ədliyyə orqanlarında qulluqkeçmə haqqında” Qanunun qəbul olunması ədliyyə orqanlarının inkişafında xüsusi mərhələ təşkil edir.

Bu gün Naxçıvan Muxtar Respublikasında ədliyyə sistemi hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2006-cı il 25 aprel tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi haqqında Əsasnamə” təsdiq edilmişdir. Əsasnaməyə əsasən, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını və notariat orqanlarının fəaliyyətini, müvafiq məhkəmələrin fəaliyyətinin təşkilati təminatını və məhkəmə qərarlarının icrasını, eləcə də penitensiar müəssisələrin fəaliyyətini təşkil edir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatını və reyestrini aparır, qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrə ibtidai istintaq aparır, məhkəmə ekspertizalarının keçirilməsi, hüquqi maarifləndirmə işinin təşkili və digər istiqamətlərdə fəaliyyət göstərir.

2007-ci ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin tərkibində ilk dəfə olaraq Penitensiar Xidmət yaradılmışdır. İnsan hüquqlarının etibarlı qorunmasına xüsusi ehtiyac duyulan sahələrdən biri olan Penitensiar Xidmətin təşkili muxtar respublikamızda cəza-icra siyasətinin həyata keçirilməsinə öz müsbət təsirini göstərmiş, məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkməsini təmin etmək məqsədilə yeni penitensiar müəssisələr tikilib istifadəyə verilmişdir. Məhkumların təminatı, sosial reabilitasiyası, məşğulluğu, asudə vaxtlarının təşkili, onlara tibbi yardımın göstərilməsi daim diqqət mərkəzində saxlanılır.

Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda istifadəyə verilmişdir. Həmin müəssisənin yaradılması insan hüquqlarının müdafiəsi, məhkumların islah olunması, onların yenidən cəmiyyətə uyğunlaşması sahəsində mühüm rol oynayır. Muxtar respublikada fəaliyyət göstərən bu müəssisədə məhkumların, təqsirləndirilən şəxslərin saxlanılması şəraiti ilə bağlı müasir meyarlar tətbiq olunmuş, onların hüquqlarının daha da yüksək səviyyədə təmin olunması, məhkəmə baxışının və qərarlarının vaxtında icra edilməsi üçün əlverişli şərait yaranmışdır.

Ədliyyə fəaliyyətinin əsas istiqamətlərindən biri də məhkəmə ekspertizalarının keçirilməsinin təşkil edilməsidir. Muxtar respublikanın hüquq-mühafizə orqanlarının təyin etdiyi ekspertizaların aparılmasında operativliyi təmin etmək məqsədilə 2005-ci il oktyabrın 5-də Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialı yaradılmışdır. Yarandığı dövrdə 7 növdə 11 ixtisas üzrə ekspertiza aparan filialın strukturuna əlavə və dəyişikliklər edilmiş, qısa müddətdə ekspertlərin hazırlanması, onların müvafiq sertifikatlarla təmin edilməsi təşkil edilmişdir. Filialın inzibati binası əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqlar alınıb quraşdırılmış və əməkdaşların iş şəraiti yaxşılaşdırılmışdır. Hazırda filialda 11 növdə 17 ixtisas üzrə ekspertiza aparılır. Ballistika, trasologiya, daktiloskopiya, materialların, maddələrin və məmulatların məhkəmə ekpertizaları, məhkəmə əmtəəşünaslıq, məhkəmə yolnəqliyyat, məhkəmə xətşünaslıq və sənədlərin kriminalistik texniki ekspertizası, məhkəmə iqtisad, məhkəmə psixoloji, məhkəmə mühəndis-texniki, məhkəmə bioloji ekspertizalarının aparılması üçün filialda lazımi texniki avadanlıqlar və laboratoriyalar mövcuddur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq fərmanlara əsasən, Ədliyyə Nazirliyində 2011-ci il mayın 1-dən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestri”, 2012-ci il yanvarın 1-dən isə “Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestri” aparılır. Əhalinin hüquqi maarifləndirilməsi, ədliyyə sistemində həyata keçirilən mütərəqqi islahatlar, görülən işlər barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması və nazirliyin fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə hazırda nazirliyin elektron səhifəsi fəaliyyət göstərir.

Muxtar respublikada ədliyyə sahəsində sistemli və ardıcıl surətdə həyata keçirilən islahatlar əhalinin yüksək hüquqi təminatına xidmət edir, ədliyyə orqanlarının fəaliyyətinin yeni dövrün tələbləri səviyyəsində qurulmasına əlverişli şərait yaradır. Ardıcıl xarakter alan hüquqi islahatlar nəticəsində dövrün tələblərinə uyğun olaraq, Ədliyyə Nazirliyinin rolu və əhəmiyyəti artmaqda davam edir. Muxtar respublikada müasir tələblərə cavab verən hüquq infrastrukturunun yaradılması əhalinin rahat və təhlükəsiz yaşamasına, onların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasına və ədliyyə orqanları qarşısında qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Hazırda məhkəmə və ədliyyə orqanları qarşısında qanunçuluğun təmin edilməsi və ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılması, qanun yaradıcılığı və hüquqi maarifləndirmə, insan haqlarının müdafiəsi, cəza-icra siyasətinin humanistləşdirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi, yüksək hazırlıqlı hüquqşünaslardan ibarət kadr potensialının formalaşdırılması kimi vəzifələr durur”.*** Ölkə başçısının bu tapşırıqlarını fəaliyyətlərinin əsası kimi qəbul edən ədliyyə işçiləri bundan sonra da qanunvericiliklə üzərlərinə qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, hüquq-məhkəmə sisteminin inkişafına öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 976